

**Azərbaycanda yaranmış çox qədim musiqi ənənələrindən biri də ailə ansambllarının fəaliyyəti ilə bağlıdır. Belə ansambllar xalqımızın mədəni sərvətləri sırasında önəmli yer tutur. Çünki bu musiqi kollektivləri özündə ifaçılar sənətinin çoxsaylı növbələrini yaşadır.**

# Zirvələrə aparan yol

Muğam xalq mahnıları, bəstəkar mahnıları, mövsüm və mərasim nəğmələri, rəqslər, müxtəlif çalğı alətlərində ifalar. Oğuz rayonundakı Salahovlar ailə ansamblı da bu qəbildəndir.

Bu ansambl nəinki Oğuzda, həmçinin respublikamızda tanınmış musiqi kollektivlərindən biridir. Onun sorağı dəfələrlə müxtəlif festivallardan, baxış-müsabiqələrdən, bayram tədbirlərindən gəlmiş, laureat adına, diplom və fəxri fərmanlara, pul mükafatlarına, hədiyyələrə layiq görülmüşdür.

Ailə ansamblının rəhbəri Əşrəf Salahovdur. 1955-ci ildə rayonun Dəymədərə kəndində anadan olub. Gözünü açanda musiqi səsi eşidib, yuxulayanda musiqi sədaları altında uyuyub.

Atam Şiralı kamança, zurna, qarmon, nağara, əmim Yunus nağara, kos, böyük qardaşım Əlövsət qarmon kimi milli musiqi alətlərində məharətlə çalar, mən isə dəf çala-çala oxuyardım - deyir Əşrəf.

Bu mahnılı-musiqili mühit, bu nəğməli dünya balaca Əşrəfə gələcək peşə-sənət yollarını müəyyənləşdirmək üçün yaşıl işıq yandırdı. 5-6 yaşından atası, əmisi və qardaşı ilə birlikdə toylarda, el şənliklərində oxumağa, nağara çalmağa, rəqs etməyə başladı. Ailə ansamblı ilk addımlarını atır, rayon tədbirlərinə və yarışlara dəvət olunurdu. Bu gün elə bir el şənliyi, bayram tədbiri tapılmaz ki, Salahovlar ailə ansamblı ora çağırılmasın, bənzərsiz ifası ilə könülləri oxşamasın.

Məhz bu istedadına görə Əşrəf Salahov orta məktəbi bitirdiyi 1973-cü ildə böyüyüb boya-başa çatdığı doğma Dəymədərə kəndində, klub müdiri vəzifəsinə təyin olundu. Çox keçməmiş hərbi xidmətə çağırıldı. Hərbi hissədə də istedadı ilə seçildi və sevildi. Mükafatlarla evə qayıtdı.

Nəhayət, tələbəlik illəri. Bakı Mədəni Maarif Texnikumu. 1981-ci ildə həmin texnikumun xalq çalğı alətləri orkestri rəhbəri şöbəsini müvəffəqiyyətlə bitirib təyinatla Oğuza qayıdan Ə. Salahov o vaxtdan indiyədək Dəymədərə kənd klubunun müdiridir.

Təhsilini başa vurub kəndə qayıdan Əşrəf ailə ansamblını yenidən formalaşdırmağa başlayır. 1986-cı ildə ansamblın üzvləri artıq ixtisas təhsilli idilər. Qardaşı Əlövsət (qarmon), onun oğlu Ayaz (tar), Asif (klarnet, zurna) Şəki şəhərindəki Musiqi məktəbində təhsil almışlar. Əşrəfin oğlu Tərlan Salahov isə Pedaqoji Universitetin musiqi şöbəsini tar ixtisası üzrə bitirib. Kiçik qardaşı Elçin nağaranın, Araz qoşa nağaranın mahir ifaçılarıdır.

Salahovlar ailə ansamblı 1975-ci ildən baxışlarda iştirak edir. Zəngin ənənələri var. Böyük uğurlar qazanmışdır. Kollektivin ilk və ən böyük uğuru 1989-cu ildə ailə ansambllarının respublika




baxış-müsabiqəsinin qalibi olması, Respublika Sarayında keçirilən, Azərbaycan Televiziyasında nümayiş etdirilən yekun konsertində müvəffəqiyyətlə çıxış etməsidir. O dövrdə "Kommunist", "Azərbaycan", "Bakinskiy raboçiy" və s. qəzetlər xalq kollektivi adına layiq görülmüş Salahovlar ailə ansamblı haqqında müxtəlif yazılar vermiş, şəkillərini dərc etmişdir. Sonra kənd klublarında, ümumrayon tədbirlərində konsertlər, qastrol səfərləri başlayır. Ayrı-ayrı illərdə ansambl Tərtər, Ağdam, Goranboy rayonlarına səfər etmiş, hərbi hissələrdə əsgərlər qarşısında konsertlər vermişdir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illərində ansambl rayonun şərəfinə "Oğuz" adlandırmışdır.

"Oğuz" ailə ansamblı 2000-ci ildə Təhsil Nazirliyinin keçirdiyi I respublika xalq yaradıcılığı festivalının, 2002-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin Astara şəhərində keçirdiyi respublika müsabiqəsinin laureatı adını qazanmış, 2005-ci ildə yenə Mədəniyyət və Turizm Nazirliyinin Şirvan şəhərində keçirdiyi milli simli musiqi alətləri ifaçılarının respublika müsabiqəsində diploma layiq görülmüşdür.



Ailə ansamblı 2008-ci ildə Şamaxı şəhərində 15 may "Beynəlxalq Ailə Günü münasibətilə ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş "Ailə bayramında" uğurla çıxış etmişdir. Salahovlar ailəsinin çıxışı İctimai Televiziya ilə yayımlanmışdır.

2009-cu il may ayının 15-də Lənkəran şəhərində "Uşaq ili" çərçivəsində keçirilən "Ailə bayramı" nda "Oğuz" ailə ansamblı diploma layiq görülmüş, milli musiqi alətləri ifaçılarının IV respublika müsabiqəsində ansamblın üzvü Tərlan Salahovun çıxışı fəxri fərmanla qiymətləndirilmişdir.

- Bütün bu uğurların səbəbi nədir?

- Biz təməli ötən əsrin 50-60-cı illərində atam Şiralı kişi tərəfindən qoyulmuş ailə ansamblının ənənələrini, atamın arzularını daim yaşadacağımıza söz vermişik - deyir Əşrəf Salahov, - əlimdəki bu qarmonu atam 1954-cü ildə məşhur qarmonçalan Teyyub Dəmirovdan alıb, əvəzi yoxdur, Atam vəfat etsə də qarmon durur, onu sevə-sevə səsləndirirəm. Atamın xatirəsi isə qəlbimdədir, arzuları yaşayır. Bir də atam deyirdi ki, hər bir ifaçı ürəyinin odu ilə çalmırsa, oxumursa, onun gələcəyi yoxdur. Mən "Yaşılbaş sona", "Kimə yalvarım", "Gəl bizə yar", "Könül açdım" və s. xalq mahnılarını oxuyanda özümdə olmuram, damla-damla əriyirəm, yanıram. Ansamblımızın bütün üzvləri də musiqiyə ürəkdən bağlıdırlar, sevə-sevə, qəlbdən ifa edirlər. Budur bizim uğurlarımızın səbəbi.



Qarmon ifaçılığı ailə ansamblının rəhbəri Əşrəf Salahovun əsil sənətidir. Lakin o, digər milli musiqi alətlərində də məharətlə çalmağı bacarır, xalq mahnılarını, muğam və təsnifləri şirin səslə, ustalıqla oxuyur. "Vağzalı", "Mirzeyi", "Uzundərə", "İnnabı", "Tərəkəmə", "Heyvagülü", kimi oyun havalarını milli musiqimizin əvəzsiz inciləri hesab edir.

Tələbəlik illərində ona dərs demiş, musiqi sənətinin incəliklərini öyrətmiş müəllimlərdən məşhur tarzən Vamiq Məmmədəliyevi, tarzən Yadigar Əliyev, Tofiq Məmmədovun balaban və klarnet ustası Elşad Cabbarovu tələbə dostlarından məşhur sənətkarlar, aktyorlar Ağalar Bayramovu, qarmon çalan Tahir Zakirovu müğənni Raqub Tağıyevi hörmətlə xatırlayır. Əşrəf Salahov, professor Ağaverdi Paşayev, xalq artistləri Canəli Əkbərov, Məsum İbrahimov, Səkinə İsmayılova, Şəfiqə Eyvazova, Möhlət Müslümov, Dadaşov Sadıq Zərbəliyev və başqaları ilə görüşləri də unutmur.

Deyir ki, onların məsləhət və tövsiyələri, sənət ənənələri mənim yetişməyimdə, tanınmağımda, sevilməyimdə və qazandığım uğurlarda böyük rol oynamışdır.

Ə.Salahov arzu edir ki, Azərbaycanda Beynəlxalq Muğam festivalı keçirildiyi kimi, ailə ansamblının da beynəlxalq festivalı təşkil olunsun. Azərbaycan xalqının buna da haqqı var, qüdrəti var, dünyaya örnək olası gözəl ənənələri var.

**Şiralı, Yunus, Əlövsət, Əşrəf, Araz, Ayaz, Asif, Elçin, Tərlan, Orxan ...**

**Salahovlardan başlanan ailə ansamblının zirvələrə doğru uzanan işıqlı yolu öz gələcək davamçılarını - Şiralı babanın hələ doğulacaq nəticəsi Rəvanı, onun qardaşı və bacılarını, əmi, xala, bibi uşaqlarını gözləyir...**

**Yusif RZAYEV,**
*şair-publisist*

**Elxan ƏZİZOV,**
*Oğuz rayon mədəniyyət evinin məsləhətçisi*